Uğurlu sosial inkişaf strategiyası

Prezident İlham Əliyevin son islahatları və qərarları tərəqqiyə, şəhid ailələrinin rifahının yüksəlməsinə xidmət edir

Yanvar ayının son günləri respublikamızda mühüm hadisələrlə əlamətdar oldu. Prezident İlham Əliyevin şəhid ailələri ilə görüşü və regionların inkişafına dair üçüncü dövlət proqramının yekunlarına həsr olunan konfrans göstərdi ki, ölkədə sosial və iqtisadi sahələrdə təkmil və nümunəvi dövlət siyasəti həyata keçirilir.
Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik.

Azərbaycan daha böyük zəfərlərə imza atacaq

Rafiq MƏMMƏDHƏSƏNOV, *Milli Məclisin deputatı, professor:*

- Beynəlxalq birliyin fəal aktorlarından birinə çevrilən Azərbaycan 2019-cu ilə uğurlu start verib. Son günlər ölkənin siyasi, sosial-iqtisadi və ictimai həyatında baş verən mühüm hadisələr bunu deməyə tam əsas verir.

Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, həyata keçirilən struktur islahatları, dövlət başçısının Davos Dünya İqtisadi Forumunda iştirakı və burada keçirdiyi mühüm görüşlər, eyni zamanda, şəhid ailələri və Qarabağ müharibəsi əlilləri, veteranları ilə görüş və bu kateqoriyadan olan insanların ailə üzvlərinə kompensasiyaların verilməsi ilə bağlı fərmanın imzalanması, regionların sosial-iqtisadi inkişafına dair IV dövlət proqramının qəbulu ən diqqətçəkən məqamlardır.

Bütün bunlar Prezident İlham Əliyevin yeni inkişaf strategiyasının uğurla davam etdiyini, ölkədə davamlı və tarazlaşdırılmış iqtisadi inkişafın təmin olunduğunu bir daha təsdiqləyir.

Cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan kompleks islahatlar Azərbaycana ilk növbədə, "dünyada ən islahatçı" ölkə imicini qazandırıb. Azərbaycan müstəqilliyi dövründə dövlətçiliyin möhkəmləndirilməsi, idarəetmənin təkmilləşdirilməsi üçün daim islahatlar keçirib və günün tələblərinə cavab verən bir sistem yaratmağa çalışıb. Struktur islahatları ilə bağlı atılan addımlar bir daha göstərir ki, Azərbaycanda çevik idarəetmə sisteminə böyük maraq var və bu siyasət bundan sonra da davam etdiriləcək.

Yaddaqalan məqamlardan biri də cənab İlham Əliyevin növbəti Davos səfəri oldu. Azərbaycan Prezidenti 13-cü dəfə dünyanın aparıcı siyasətçilərinin, iş adamlarının, ekspertlərinin toplaşdığı 49-cu Davos İqtisadi Forumunda iştirak etdi. 110 ölkədən 3 mindən çox iştirakçını bir araya gətirən budəfəki forum "Qloballaşma 4.0: 4-cü Sənaye İnqilabı dövründə yeni arxitekturanın yaradılması" devizi altında təşkil edilən forumda Azərbaycan Prezidenti 20-dən çox beynəlxalq şirkət və dövlət, hökumət başçıları ilə görüşlər keçirdi, Rusiyanın "Rossiya 1" və Çinin "CGTN" televiziya kanallarına müsahibə verərək Azərbaycan həqiqətlərini bir daha dünyaya çatdırdı.

Forum çərçivəsində "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" mövzusunda sessiyada iştirak edən Prezident İlham Əliyev Azərbaycanın bu layihəyə dəstək verdiyini və regiondan keçən bütün transmilli layihələrin iştirakçısı olduğunu diqqətə çatdırdı.

Ümumiyyətlə, Azərbaycanın hər il bu forumda dövlət başçısı səviyyəsində təmsil olunması ölkəmizin vacib tərəfdaş kimi tanınmasını sübut edən reallıqdır. Bütün bunlar Azərbaycanın dünya birliyinə inteqrasiyasını daha da möhkəmləndirir, iqtisadi əlaqələrini davamlı və etibarlı edir.

Hər bir dövlətin əsas funksiyalarından biri əhalinin sosial müdafiəsini təşkil etmək, maddi nemətlərin ədalətli bölgüsünə nail olmaq, daxili siyasətin sosialyönümlüyünü ön planda saxlamaq, vətəndaşların sosial rifah halını yaxşılaşdırmaqdan ibarətdir. Azərbaycanda da dövlət daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir.

Xüsusi ilə də şəhid ailələri və Qarabağ müharibəsi əlilləri, onların ailə üzvləri daim dövlətin diqqət və qayğısı ilə əhatə olunurlar. Bu kateqoriyaya aid olan insanlara mənzil və avtomobillər verilir, onlar güzəşt və müxtəlif kompensasiyalarla təmin edilirlər.

Elə dövlət başçısının müvafiq fərmanları ilə şəhid hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi də Prezidentin növbəti humanist təşəbbüsü kimi qiymətləndirilir. Yanvarın 28-də Prezident İlham Əliyevin və xanımı, Birinci vitse-prezident Mehriban Əliyevanın Prezident Sarayında şəhid ailələri ilə görüşləri də bir daha təsdiqlədi ki, dövlət başçısı ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalmış və qazi olmuş şəxslərə hər zaman diqqət və qayğı göstərir. Bunu həm də indiyədək bu kateqoriyadan olan insanlara verilən mənzillər, avtomobillər və müxtəlif sahələr üzrə tətbiq edilən güzəştlər də təsdiqləyir.

Digər mühüm məqam isə regionların sosial iqtisadi inkişafına dair IV dövlət proqramının qəbulu oldu. Əvvəla, onu deyək ki, regionların sosial-iqtisadi inkişafına dair qəbul olunmuş və icrası başa çatmış 3 dövlət proqramı həqiqətən də Azərbaycan bölgələrinin simasını büsbütün dəyişdirib. Təkcə bir fakta nəzər yetirsək, aydın şəkildə görərik ki, bu gün regionlar yeni inkişaf dövrünü yaşayır. Əgər vaxtı ilə insanlar işsizlikdən şəhərlərə üz tuturdularsa, bu gün yenidən kəndə qayıdış başlayıb. Çünki kənd təsərrüfatında böyük yüksəliş var. Regionlarda qeyri-neft sənayesinin, aqrar sektorun inkişafı istiqamətində böyük işlər görülüb.

Prezident İlham Əliyevin imzaladığı yeni fərmana əsasən, təsdiqlənən IV dövlət proqramı isə bir daha göstərir ki, regionların inkişafı yeni mərhələyə qədəm qoyur. İnanıram ki, yeni dövlət proqramı cənab Prezidentin verdiyi göstərişlər əsasında uğurla yerinə yetiriləcək. Bütün bunlar xalqımız, dövlətimiz, Vətənimiz üçündür. Yəni görülən bütün işlər bizi qələbəyə, parlaq işıqlı gələcəyə aparır. Əminliklə deyə bilərik ki, bu proqram regionların sosial-iqtisadi inkişafında çox mühüm rol oynayacaq və Azərbaycan cənab İlham Əliyevlə hələ çox böyük zəfərlərə imza atacaq.

Qürurverici inkişaf

Tahir SÜLEYMANOV, *Milli Məclisin deputatı:*

- Bu həftənin ən mühüm hadisələrindən biri "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransın keçirilməsi oldu. Əslində, bu konfrans ötən 15 ilin sosial-iqtisadi inkişafı istiqamətidə həyata keçirilən möhtəşəm tədbirlərin hesabatı idi və Azərbaycan ictimaiyyəti bir daha gördü ki, bu dövrdə respublikamız olduqca qürurverici və möhtəşəm inkişaf yolu keçib.

Prezident İlham Əliyev hələ 2003-cü ildə Azərbaycanın gələcək inkişaf istiqamətləri ilə bağlı prioritetləri elan etmişdi. Dövlət başçısının bununla bağlı qarşıya qoyduğu əsas vəzifələrdən biri də regionların inkişafına nail olunması idi. Bu mənada hələ 2004-cü ildə regionların inkişafı ilə bağlı birinci proqramın qəbul edilməsinin bir neçə səbəbi var idi. İlk növbədə, bölgələrin inkişafı və əhalinin məşğulluğunun təmin edilməsi əsas vəzifələr idi. Bölgələrin inkişafı üçün infrastruktur layihələrinin icrası məsələləri qarşıda dayanmışdı. Eyni zamanda, sahibkarlığın inkişafı və onlara dövlət dəstəyinin gücləndirilməsi və bütün bu məsələlərin bir-biri ilə əlaqəli şəkildə həll edilməsi proqramın əsas mahiyyətini təşkil edirdi. Eyni zamanda, yerli istehsalın artırılması, idxaldan asılılığın azaldılması, iş yerlərinin yaradılması və beləliklə, yoxsulluğun, işsizliyin aradan qaldırılması məsələləri də böyük əhəmiyyət daşıyırdı. Yəni, regionların sosial-iqtisadi inkişafı dövlət proqramları əslində, ölkəmizin uğurlu, dayanıqlı inkişafı, iqtisadiyyatımızın şaxələndirilməsi üçün vacib iqtisadi alət rolunu oynadı və zaman göstərdi ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə başlanan sosial-iqtisadi islahatlar zamanında atılan ən doğru addımlardır.

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramının qəbul edilməsi ölkəmizin inkişafında yeni mərhələnin başlanğıcını qoyaraq, regionların yüksəlişini dövlət siyasətinin prioritet istiqamətlərindən biri səviyyəsinə qaldırdı. Zamanın nəbzini düzgün tutmaqla, mövcud iqtisadi potensialdan və resurslardan, bütün imkanlardan səmərəli şəkildə istifadə etməklə ölkə iqtisadiyyatının keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına böyük uzaqgörənliklə nail olan Prezident İlham Əliyev bununla, həm də ulu öndər Heydər Əliyevin ideyalarını, arzularını, görmək istədiklərini həyata keçirdi.

Birinci proqramın icra edildiyi müddətdə ölkənin bütün regionlarını əhatə etməklə 20 mindən artıq yeni müəssisə yaradıldı. ÜDM-in real həcmi 2,6 dəfə artaraq 38 milyard manata çatdı. ÜDM-in adambaşına düşən nominal həcmi isə 5 dəfə artaraq 4440 manat təşkil etdi. Bu dövrdə qeyri-neft sektoru 1,8 dəfə artdı. Sənayedə 2,5, kənd təsərrüfatında isə 25,2 faiz artım qeydə alındı. 2003-cü illə müqayisədə 2008-ci ildə əhalinin gəlirləri də 4 dəfə artdı. Bu müddətdə ölkə üzrə 750 mindən artıq yeni iş yeri açıldı ki, bu da Prezident İlham Əliyevin 2003-cü ildə verdiyi vədin reallaşması idi. Yeni iş yerləri öz növbəsində yoxsulluğun səviyyəsinin azalmasında mühüm rol oynadı. 2003-cü ildə ölkə əhalisinin təxminən 44,7 faizi yoxsulluq şəraitində yaşayırdısa, artıq 2008-ci ilin sonuna bu kateqoriyaya əhalinin yalnız 13,2 faizi aid olunurdu. Xatırladaq ki, həmin dövrdə Prezident İlham Əliyev şəhər və rayonların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə olaraq 17 sərəncam imzalamışdı.

2009-2013-cü illəri əhatə edən ikinci dövlət proqramı ölkənin sosial-iqtisadi nailiyyətlərini daha da artırdı. Artıq cənab İlham Əliyevin prezidentliyinin 10-cu ilində Azərbaycanda qeyri-neft sektoru 2,6 dəfə artdı, valyuta ehtiyatları çoxaldı, xarici ticarət dövriyyəsi 6,6 dəfə, ixrac 9,3 dəfə, idxal 4,1 dəfə, qeyri-neft ixracı 4,7 dəfə çoxaldı. Bu illərdə dövlət büdcəsinin gəlirləri 16 dəfə, orta aylıq əməkhaqqı 5,5 dəfə, pensiyalar 9,6 dəfə, əhalinin əmanətləri 27 dəfə artdı. Yoxsulluğun səviyyəsi 2003-cü ildəki 44,7 faizdən 2013-cü ildə 5,3 faizə düşdü. Bu dövrdə 1,2 milyondan çox yeni, o cümlədən 900 min daimi iş yeri açıldı, 55,6 min yeni müəssisə yaradıldı.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası da uğurla yekunlaşdı. Amma biz bu proqramın nəticələrini ötən 15 ilin nümunəsində nəzərdən keçiririk. Ona görə ki, hər üç dövlət proqramı bir-birinin məntiqi davamıdır. 15 ilin sosial-iqtisadi yekunları isə həqiqətən, qürurvericidir. Cənab Prezidentin müşavirədə səsləndirdiyi rəqəmlər ötən 15 ilin real inkişaf mənzərəsidir. Bu dövrdə Azərbaycanda ümumi daxili məhsul 3,3 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, kənd təsərrüfatı istehsalı 1,7 dəfə artıb. Dünyada qısa müddətdə belə inkişaf göstəricilərinə nail olmuş dövlət göstərmək yəqin ki, mümkün deyil.

Azərbaycan bu illərdə qlobal layihələr həyata keçirib. Təbii ki, əldə olunan uğurlarımızda Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin istifadəyə verilməsinin böyük rolu var. Ulu öndər Heydər Əliyevin neft strategiyasını layiqincə davam etdirən Prezident İlham Əliyev müxtəlif maneələri dəf etdi, antiazərbaycançı dairələrin planlarını iflasa uğratdı və bu, enerji kəmərlərinin inşasını uğurla reallaşdırdı. Məhz bu kəmərlərlə satılan neft və qazdan əldə olunan gəlirlər 15 ildə ölkəmizin inkişafında mühüm rol oynadı.

Bu dövrdə Azərbaycan digər qlobal iqtisadi layihələri də həyata keçirdi. "Cənub qaz dəhlizi" inşa olundu, Bakı-Tbilisi-Qars dəmir yolu xətti çəkildi, Türkiyədə "Star" zavodu inşa olundu. Yol infrastrukturu tamamilə yenilləndi. Bu illərdə Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinin Azərbaycandan keçən hissəsində mühüm layihələr həyata keçirildi, 15 min yeni avtomobil yolu çəkildi, 7 beynəlxalq hava limanı tikildi. 15 ilin başqa bir mühüm uğuru Azərbaycanın kosmos dövlətinə çevrilməsidir. Konfransda deyildiyi kimi 31 yeni elektrik stansiyasının inşası isə ölkədə gedən inkişaf proseslərinə mühüm təkan verdi.

Təbii ki, bu dövrün sosial uğurlarının statistikası da təqdirəlayiqdir. 2 milyon iş yeri açılması, maaşların 7, pensiyaların 9 dəfə artması, işsizliyin 5 faizə düşməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan sosial nailiyyətlərdir. Məhz belə uğurlar cənab İlham Əliyevin prezident seçkilərində inamlı qələbə qazanmasını təmin etdi.

Respublikamızın uğurlarından biri iqtisadi böhran zamanı öz yolu ilə irəliləməsidir. Bunun da əsas səbəblərindən biri məhz dövlət proqramlarının icrası nəticəsində yaradılmış iqtisadi potensialdır. Beynəlxalq geriləmənin yaşandığı illərdə Azərbaycan böhrandan layiqincə çıxıb. Həyata keçirilən iqtisadi islahatlarla öz inkişafının yeni mərhələsinə qədəm qoyub.

Prezident İlham Əliyev 2019-2023-cü illəri əhatə edən növbəti dövlət proqramını təsdiq edib. Əminik ki, bu proqram da uğurla icra olunacaq və Azərbaycanın sosial-iqtisadi inkişafını tamamilə yeni mərhələyə qaldıracaq.

Şəhid ailələri hər zaman dövlətin qayğısını hiss edəcəklər

Nəsib MƏHƏMƏLİYEV, *Milli Məclisin deputatı:*

- Şərəf və qürur yerimiz olan dövlət müstəqilliyi xalqımıza asan başa gəlmədi. Sovet imperiyasının caynağından qurtulan digər xalqlardan fərqli olaraq biz bu yolda şəhid verdik, qanımızdan keçdik. Eləcə də torpaqlarımızın müdafiəsi uğrunda döyüşlərdə minlərlə vətən övladı canını fəda etdi, şəhidlik zirvəsinə ucaldı. Bu ucalığa yüksələnlərin qısa ömür yolu hünər və qeyrət rəmzidir.

Xalqımız və dövlətimiz şəhidlərin əziz xatirəsini həmişə uca tutur. Çünki şəhidlər xalqımızın kimliyini, mənliyini göstərən müqəddəslərdir. Tökülən şəhid qanı bizim bugünkü azadlığımızın, firavanlığımızın təməl daşıdır.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın yanvarın 28-də Prezident Sarayında şəhid ailələri ilə görüşmələri həftənin ən mühüm hadisəsi oldu. Bu görüş ölkə Prezidentinin, şəhidlərin xatirəsinə və onların ailə üzvlərinə dərin ehtiramının, diqqət və qayğısının növbəti əyani təzahürü kimi yadda qaldı. Eyni zamanda, şəhid ailələri ilə görüş Heydər Əliyev ideyalarının davamının növbəti təsdiqi oldu. Çünki ulu öndər şəhid ailələrinə həmişə xüsusi diqqət və qayğı göstərilməsini mühüm vəzifələrdən biri kimi müəyyən etmiş, şəhid ailələrinə daim yaxından dəstək olmuşdu. Heydər Əliyevin bu xeyirxah və humanist siyasəti çox uğurla davam etdirilir, vətənimizin bütövlüyü uğrunda şəhid olmuş insanların xatirəsinin əbədiləşdirilməsi, onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsi üçün fəal və ildən-ilə güclənən siyasət həyata keçirilir. Şəhid ailələrinin mənzillə, pensiya və müavinətlərlə təmin olunmaları daim diqqət mərkəzindədir. Bütün bunlar təsdiq edir ki, Heydər Əliyevin layiqli siyasi davamçısı olan Prezident İlham Əliyevin sosial siyasətində şəhid ailələrinə yüksək və hərtərəfli qayğı göstərilməsi daim prioritetdir. Şəhid ailələri ilə görüş zamanı Prezident İlham Əliyev bu barədə deyib: *"Mənim fəaliyyətimdə bu məsələ daim prioritet təşkil edir. Son illər ərzində şəhid ailələri ilə çoxsaylı görüşlərim bunu bir daha sübut edir. Biz sizinlə birlikdə bir çox evlərin açılışlarında iştirak etmişik. Mən şəhid ailələrinə mənzillərin, avtomobillərin açarlarını şəxsən təqdim etmişəm və bunu özüm üçün borc bilirəm. Bu mənim borcumdur, xalqa xidmət etmək mənim ən böyük vəzifəmdir. Mənim üçün bu, böyük şərəfdir ki, sizə bu istiqamətdə xidmətimi göstərim".*

Şəhid ailələri ilə bağlı atılan addımlar isə şəhidlərin xatirəsinə göstərilən ən böyük ehtiramdır. Respublikamızda bu sahədə görülən işlər həm qürurvericidir, həm də şəhid adının həmişə uca tutulmasının göstəricisidir. Ölkəmizdə şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımların statistikası da göstərir ki, şəhidlər unudulmur və onların ailələri daim dövlətin ən yüksək qayğısı ilə əhatə olunur. Xatırladım ki, indiyədək bu kateqoriyadan olan vətəndaşlara 6654 mənzil təqdim edilib. Yaxın illərə nəzərə salsaq, 2017-ci ildə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərdən və şəhid ailələrindən 315 nəfər mənzil və fərdi evlə təmin ediliblər. Ötən il isə şəhid ailələrinə və müharibə əlillərinə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla, 626 mənzil verilib. Bu il həmin kateqoriyadan olan vətəndaşlara azı 800 mənzilin təqdim olunması nəzərdə tutulur. Eləcə də bu vaxta qədər müharibə əlillərinə 6144 avtomobil verilib.

Bütün bunlar ölkəmizdə şəhid ailələrinə, o cümlədən müharibə əlil və veteranlarına olan diqqətin təsdiqidir. Bu diqqətin ən mühüm nümunəsi isə Prezident İlham Əliyevin 2018-ci ilin aprelində keçirilən seçkilərdən sonra imzaladığı ilk fərmanın şəhid ailələri ilə bağlı olmasıdır. Cənab Prezidentin "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2018-ci il 19 aprel tarixli 1 nömrəli fərmanı göstərdi ki, dövlət başçısı üçün şəhid ailələrinə qayğı prioritetdir. Fərmana əsasən, şəhid hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi nəzərdə tutulub. Dövlət başçısının növbəti mühüm humanist təşəbbüsü kimi şəhid hərbi qulluqçuların vərəsələrinə birdəfəlik ödəmənin verilməsi vətənimizin müdafiəsi uğrunda şəhid olmuş qəhrəman Azərbaycan övladlarının ailə üzvlərinin rifahının yaxşılaşdırılması, sosial ədalətin təminatı istiqamətində daha bir əhəmiyyətli addım kimi ümumən ictimaiyyət tərəfindən rəğbətlə qarşılandı. İndiyədək 3100-dən çox şəhidimizin ailə üzvlərinə və digər vərəsələrinə birdəfəlik ödəmə həyata keçirilib, bu istiqamət üzrə 34 milyon manat vəsait ödənilib. Hazırda 6 mindən çox şəhidin vərəsələrinə ödənişlər davam etməkdədir.

Şəhid ailələri ilə görüşən gün dövlət başçısının imzaladığı növbəti fərman hər birimizi qürurlandırdı, təsirləndirdi. "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 aprel tarixli 1 nömrəli fərmanında dəyişiklik edilməsi barədə fərmana əsasən, birdəfəlik ödəmənin əhatə dairəsi daha da genişləndi. Respublikamızın ərazi bütövlüyü uğrunda 1997-ci ilin avqust ayının 2-dək şəhid olmuş əlavə 2725 şəhidin (o cümlədən 11000 manatdan az sığorta ödənişi almış 2264 şəhid hərbi qulluqçunun və 461 şəhid polisin) vərəsələrinə də birdəfəlik ödəmə veriləcək. Yeni fərmanla birdəfəlik ödəmənin verilməsi prosesi artıq 12268 şəhidin vərəsələrini əhatə edir.

Lakin Prezidentin diqqət və qayğısı bununla bitmir. Cənab İlham Əliyev yanvarın 30-da şəhid ailələrinin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə növbəti fərman imzaladı. "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında" fərmana əsasən şəhid ailəsi üçün Azərbaycan Prezidentinin təqaüdünün aylıq məbləği artırılaraq 2019-cu il fevralın 1-dən 300 manat müəyyən edildi. Bundan əvvəl isə bu məbləğ 242 manat idi. Xatırladım ki, hazırda Azərbaycan Prezidentinin aylıq təqaüdünün məbləği Milli Qəhrəmanlar üçün 1500 manat, I qrup müharibə əlilləri üçün 182 manat, II qrup müharibə əlilləri üçün 158 manat, III qrup müharibə əlilləri üçün 121 manat təşkil edir.

Təmsil etdiyim Balakən rayonunda da şəhid ailələri yüksək sosial qayğı ilə əhatə olunublar. Onlar göstərilən yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə öz minnətdarlıqlarını bildirirlər. Qeyd edim ki, rayonumuzda 155 şəhid ailəsi və 113 Qarabağ müharibəsi əlili var. Qarabağ əlilləri və şəhid ailələri üçün indiyədək 18 fərdi ev və 2 (8 və 36 mənzilli) yaşayış binası tikilərək istifadəyə verilib. Bundan sonra rayonda şəhid ailələrinin sosial qayğıları daim diqqət mərkəzində saxlanılacaq.

Şəhidlər bizim qürurumuz, and yerimizdir. Ona görə ən ali səviyyədə şəhid ailələrinə göstərilən bu cür yüksək diqqət və qayğı həm də şəhidlərimizin əziz xatirəsinə yüksək ehtiramın nümunəsidir. Onların ruhu rahatdır. Çünki əmanət qoyub getdikləri əzizlərinin yanında güclü və qüdrətli Azərbaycan dövləti var.

"Azərbaycan"